# XX əsrin əvvəli və XXI əsrin ilk onilliyində tamaşaya qoyulan “Nadir şah” və “Ağa Məhəmməd şah Qacar” əsərlərinin təhlili

**Məlahət Ağayeva**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru
**E-mail: melahet-agayeva@mail.ru**

Tarixdə yaşayan şəxsiyyətlərə (sərkərdələrə, şahlara, dövlət və din xadimlərinə), dünya ölkələrinin istiqlal mübarizəsinə, vətən və xalq üçün canından keçən şəhidlərə həsr olunan əsərləri tarixi dramlar adlandırmaq olar. Azərbaycanda ilk tarixi dramın əsasını görkəmli dramaturqumuz Nəriman Nərimanov 1898-ci ildə “Nadir şah” tarixi faciəsi ilə qoydu. Bunun ardınca Əbdürrəhim bəy Haqverdiyev 1907-ci ildə “Ağa Məhəmməd şah Qacar” tarixi pyesini yaratdı. C.Cabbarlı “Nəsrəddin şah”, “Ədirnə fəthi”, “Ulduz”, “Trablis müharibəsi”, Hüseyn Cavid “Topal Teymur”, “Peyğəmbər”, İ.Əfəndiyev “Hökmdar və qızı” (“Qarabağnamə”), “Xurşidbanu Natəvan”, B.Vahabzadə “Fəryad”, “Şəhidlər”, “Özümüzü kəsən qılınc”, “Dar ağacı”, Ə.Əmirli “Mesenat”, “Bütün deyilənlərə rəğmən Ağa Məhəmməd şah Qacar”, “Ağqoyunlular və Qaraqoyunlular”, H.Mirələmov “Gəncə qapıları”, N.Həsənzadə “Atabəylər”, “Pompeyin Qafqaza yürüşü” tarixi əsərlərini yazaraq teatrlarımıza təqdim etdilər.

XIX əsrin sonu XX əsrin əvvəllərində tarixi mövzulu əsərlərin milli dövlətçilik, siyasətlə bağlılığı üzündən çapı və tamaşaya qoyulması senzura tərəfindən yasaqlanmışdı. Belə əsərlərdən biri də Nəriman Nərimanovun “Nadir şah” tarixi faciəsidir.

“Nadir şah”ın tamaşaya qoyulmamasının əsas səbəbi xalqın iki padşahı taxtdan devirməsi və sadə kütlələr içərisindən hökmdar seçilməsi idi. Hətta çar senzurası əsərin əlyazmasının məhv edilməsini də qəti şəkildə tapşırmışdı.

Möhkəm əqidəli və prinsipial dramaturq tarixi faciənin səhnələşdirilməsinə olmasa da, nəşrinə icazə ala bilir. “1899-cu il yanvarın 22-də bu rəsmi xəbəri alan müəllif tarixi əsəri “Aror” mətbəəsində 1200 tirajla çap etdirir”. (2, 148)

1905-ci il inqilabından sonra çar senzurası “Nadir şah” pyesinin tamaşaya qoyulmasına da icazə verir. Bundan həvəslənən aktyorlarımız böyük həvəslə əsərin məşqlərinə başlayırlar. Bir neçə məşqdən sonra məlum olur ki, müsəlmanların qara bayramı (məhərrəmlik - M.Ağayeva) başa çatmayana qədər tamaşanı Azərbaycan dilində oynamaq mümkünsüzdür.



Odur ki, Nikulinin truppası Bakı general-qubernatorundan əsərin rus dilində oynanılmasına icazə alıb məşqlərə başladı. Tərcümə işini müəllif öz üzərinə götürdü. 8 fevral 1906-cı il tarixli premyera böyük uğurla keçdi. “Kaspi” qəzetində R.Məlikov tamaşa haqqında ümumi məlumat verdikdən sonra, ayrı-ayrı aktyorların oyunundan danışaraq Təhmasxan - Komarov, Heydərxan - Valentinov, Gürcübəy - Versovski, Hüseynxan - Komarovun uğurlarını qeyd edirdi. “İlk dəfə Azərbaycan qadını rolunda səhnəyə çıxmasına baxmayaraq, aktrisa Kovrova-Vryanskayanın daxili sarsıntı və əzab keçirən Gülcahan rolunu məharətlə” (5) yaratdığı göstərilirdi.

“Nadir şah” tarixi faciəsi Azərbaycan dilində ilk dəfə 8 sentyabr 1906-cı ildə tamaşaçılara təqdim olundu. Əsas rolları Rüstəmbəyov (Nadir şah), Fateh (Cavad), Məhəmməd Əlvəndi (Təhmas), M.Muradov (Rzaqulu), Hüseyn Ağayev (Mirzə Mehdi xan), H.Xələfov (Məhəmməd xan), B.Bədəlbəyov (Gürcü bəy), Axundova (Gülcahan), Bağdadbəyov (birinci yolçu), Ağayev (ikinci yolçu) obrazlarını ifa edirdilər. Dövri mətbuatda işıq üzü görən məqalələrdən aydınlaşır ki, tamaşa böyük müvəffəqiyyətlə keçmişdir. Tənqid güclü ansambla malik aktyor oyunu haqqında yazırdı: “Vəzir Mirzə Mehdi xan rolunda Hüseyn Ağayev cənabları insafən layiqincə oynadı, teatrdakı hərarətin təkrarən təşəkkürünü aldı. Ələlxüsus axırıncı məclisdə Ağayev cənabları vəzirlik rolunu elə əda etdi ki, baxıcılar heyrət ilə ona “afərin” deyə



qışqırdılar. Sonra Cavad - Nadirin dayısı, Fateh və Rzaqulu (onun oğlu), Muradov cənabları da yaxşı oynayırdılar". (4)

1736-cı ildən 1747-ci ilə kimi İranda şahlıq etmiş Nadir şahın həyatı bizə dörd mərhələdə təqdim edilir: "Quldurluq dövrü - hansı ki, Nadir "düşdüyü yeri viran qoyur", dayısı Cavad xanın nəsihətindən sonra dövlətə xidmət edən sərkərdəlik dövrü; ədalətli və islahatçı şahlıq dövrü və sonuncu, ona qarşı edilən sui-qəsddən sonrakı aldadılmış, oğlunun gözlərini çıxarmış zavallı "şah baba" dövrü". (9, 119)

Azərbaycan dramaturgiyasının və teatrının tarixində ikinci tarixi faciə Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" pyesi oldu. Peterburqda və İranda (Mazandaranda) uzun müddət tarixi sənədləri araşdırdıqdan sonra yazılan əsərdə 1779-cu ildə İranda hakimiyyəti ələ alan, 1797-ci ildə Şuşada öldürülən Ağa Məhəmməd şah Qacarın hakimiyyət illərindən söhbət açılır. Şahlığı, müstəbidliyi, feodal özbaşınalığını tənqid edən, hakimiyyəti əldə saxlamaq üçün yaradılan dözülməz işgəncələr, həbsxana mühitinin dəhşətlərini dramaturq ürək yanğısı ilə oxuculara çatdırır. Pyesdə onu hakimiyyətə gətirən doğma qardaşı Cəfərqulu xanı aldadaraq aradan götürən Qacarın işgəncələrinin miqyası son həddə çatır. On yeddi il ölkəni idarə edən Qacar 1795-ci ilin iyun ayında Şuşaya hücum edir, xalqın əzmini qıra bilmədiyini görüb, Şuşa qalasını 33 gün mühasirədə saxlayaraq geri çəkilir. 1797-ci ilin yazında Ağa Məhəmməd şah Qacar ikinci dəfə Şuşa qalasına hücum edərək divarları eyni nöqtədən toplarla nişan almaq əmri verdi. Beləliklə, Şuşaya daxil olan Qacar gecə öz qulluqçuları tərəfindən öldürüldü.

H.Ərəblinski ilə Ə.Haqverdiyevin rejissorluğu ilə "Ağa Məhəmməd şah Qacar" tamaşası 3 dekabr 1907-ci ildə göstərildi. Tamaşada səhnə Şərq üslubuna uyğun qurulmuşdur". Tiflisin yanma səhnəsi H.Ərəblinski tərəfindən böyük müvəffəqiyyətlə işlənibmiş. Sanki səhnə od-alov içərisində yanırmış, hətta "alovun" təsirindən canında istilik hiss edən tamaşaçılar da vardı. Onlar rejissorun dəli olduğunu zənn edib, səhnənin doğrudan yandığına inanmış, zalı tərk etmək məcburiyyətində qalmışlar". (8, 139)

Tamaşanın ən uğurlu cəhətlərindən biri də qüvvətli aktyor ifası idi. Dövri mətbuatda tənqidçilərin yazılarına əsaslanaraq deyə bilərik ki, H.Sarabski - Hacı İbrahim xan, Ə.Vəli - Murtuzaqulu xan, A.M.Şərifzadə - Cəfərqulu xan və digər rollardakı aktyorlar M.Əlvəndi, Ə.Qəmərlinski, Hüseynzadə öz obrazlarını yüksək bacarıqla nümayiş etdirmişlər. Hüseynqulu Sarabski saray vəziri Hacı İbrahimi həm xarici görkəmi, həm də daxili aləmi cəhətdən düzgün rəsm edirdi: "Qibleyi-aləm! Bu çox tədbir idi" - deyə Ağa Məhəmməd şah Qacarın hərəkətlərini ağzı köpüklənə-köpüklənə tərifləyən Hacı İbrahim həm də ağıllı, tədbirli bir vəzir idi. Çox sözü Ağa Məhəmməd şah Qacarın üzünə deyə bilməsə də, hərəkəti, mimikası ilə öz narazılığını bildirirdi. Xüsusilə ikinci səhnədə Qacar qardaşı Cəfərqulu xanın İsfahan əvəzinə Mazandarana göndərilməsinin səbəbini Hacı İbrahim xandan gizlətdikdə öz incikliyini açıqdan-açığa büruzə verir. Etiraz sözünü söylədikdə rəngdən-rəngə düşür, Qacarın baxışlarından qorxduğundan gah tavana, gah pəncərəyə baxır, son sözünü ala yarımçıq bitirib, sol cinahı üstündə otaqdan çıxır. Ağa Məhəmməd şahın çağırışı ilə yenidən otağa daxil olan Hacı İbrahim xanın bədənində üşütmə, hərəkətlərində narahatlıq, sifətində qorxu, peşmançılıq duyulur.

Tamaşada ən uğurlu obrazlardan biri də, Hüseyn Ərəblinskinin yaratdığı Ağa Məhəmməd şah Qacar surəti idi. O, öz rolunun qriminə, paltarlarının ən xırda detallarına belə, xüsusi diqqət verirdi. Səhnəyə çıxdığı zaman Ərəblinski Qacar rolunda tamaşaçıları, hətta səhnədəki həvəskarları belə heyrətə salırdı.

Böyük istedada malik H.Ərəblinski "öz qrimi ilə tarixi Qacarın arıq, nazik, cansız, üzüntü ifadəli simasını yarada bilmişdi, paltar və əlbəsəsi də tarixi Qacarın zahiri surətini düzgün yaratmaq məqsədilə seçilmişdi". (6, 27)

Ərəblinski obrazın zahiri cəhətləri ilə yanaşı, daxili xüsusiyyətlərini də çox gözəl təqdim edə bilirdi. Qacarın - Ərəblinskinin kinli, əsəbi, qəzəbli hərəkətləri hələ sakit dayanıb, fikrə getdiyi ilk anlardan özünü büruzə verirdi. Bu əsəbilik onun fiziki şikəstliyi ilə bağlı olsa da, çox faciəvi və dəhşətli görünürdü. Atasının qatili Kərim xanın torbadakı sümüklərinə əlini sürtərək, sanki böyük həzz alırmış kimi dərindən nəfəs alır, dodaqlarına acı bir təbəssüm qonurdu. "Mən dünya ləzzətlərindən məhrumam. Göydən uçan quşlara, yerdə gəzən heyvanlara, torpaq altında məskən tutan qarışqaya müyəssər olan ləzzət, məntək padşaha müyəssər deyil. Amma hər sübh ki, yerimdən duranda ayaqlarımı Kərim xanın sümüklərinə basıram, ürəyimin yaraları yadımdan çıxır. Nadirin də sümükləri inşaallah gələr" (1, 106) sözlərini elə həyəcanla deyirmiş ki, nəinki iştirakçılar, hətta tamaşaçılar da qorxuya düşür, bədənlərindən soyuq tər axdığını hiss edirdilər.

N.Nərimanov dramaturgiyasının görkəmli tədqiqatçısı, professor Teymur Əhmədov yazır: "Ə.Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" tarixi faciəsi teatr həyatında "Nadir şah" qədər böyük təsir buraxmamışdır. Çünki, "Ağa Məhəmməd şah

Qacar" tarixi faciəsində İranın on səkkiz illik (1770-1797) ziddiyyətli dövrü, müstəbid şah Qacarın şəxsiyyəti, taxt-tac hərisliyi, istilaçılıq meylləri və saray intriqaları bədii xronika prinsiplərinə əsasən təsvir olunmuşdur". (11, 177) Sənətşünaslıq üzrə fəlsəfə doktoru Vidadi Qafarlı isə bu fikirlərlə razılaşmayaraq yazır: "Tarixi sənədlər də sübut edir ki, hər iki faciə Azərbaycan teatrı və dramaturgiyasının inkişafında müstəsna rol oynamışdır". (9, 121) Mən də Vidadi müəllimin fikirlərini dəstəkləyərək hər iki əsərin Azərbaycan dramaturgiyası və teatrının inkişafındakı rolunun eyniliyini vurğulayıram.

Azərbaycan Milli Dram Teatrı üstündən bir əsrdən də artıq vaxt keçdikdən sonra yenidən "Şah Qacar" tarixi pyesinə müraciət etdi. Ancaq bu dəfə Ə.Haqverdiyevin yazdığı tarixi dramı deyil, teatr aləminə yaxından tanış olan Əli Əmirlinin "Şah Qacar" əsərini tamaşaya hazırladı. İlk tamaşası 13 iyun 2013-cü ildə göstərilən tamaşanın quruluşunu Azər Paşa Nemətov, musiqi tərtibatını Səyavuş Kərimi vermişdi.

Ə.Əmirlinin şah Qaçarı yenidən ədəbiyyatımıza gətirməkdə məqsədi tarixi Qaçarı həyatda olduğu kimi insanlara təqdim etməkdir. Tamaşadan əvvəl səhnəyə çıxıb danışan dramaturq deyir: "Biz bu tamaşada Qaçarın reallıqdakı kimi təqdimatına çalışmışıq. Tarixi mənbələrə görə, Qaçar çox ədalətli bir şah olub. Cinayəti cəzasız, xidməti mükafatsız qoymayıb. Çox dindar, Allahını tanıyan bir adam imiş. Təbii ki, bütün orta əsr hakimlərinə məxsus keyfiyyətləri də varmış. Azərbaycan ədəbiyyatında təhrifə uğrayan Qaçarı çalışmışıq ki, həqiqətə uyğun şəkildə təqdim edək. Mənə elə gəlir ki, məqsədimizə nail olmuşuq". (12)

Xalq artisti Azər Paşa Nemətov səhnə əsərinin həm quruluşçu rejissoru, həm də rəssamıdır. Səhnədə görsənən hər bir şey; dekorasiya, rekvizit, butaforiya, aktyorların geyimi hamısı öz yerindədir. Bu isə tamaşanın müəllifi Azər Paşa Nemətovun istedadlı rəssam təxəyyülünün yaradıcı təzahürüdür.

Ə.Haqverdiyevdən fərqli, Ə.Əmirli Şah Qacarın həm uşaqlıq, həm yeniyetməlik, həm də ahıl dövrünü qələmə alır. Uşaq Qacarın təmiz, saf sevgi ilə qonşu qıza aşiq olduğunu yazır. Yeniyetmə Qacar adət-ənənələrimizə xilaf çıxaraq, sevgilisinə təcavüz edir. Bunun nəticəsi olaraq qızın qardaşları tərəfindən axtalanaraq cəzalandırılır. Bundan sonra içində insanlara qarşı baş qaldıran kin-küdurət artaraq onu bir tirana çevirir.

Torpaqlarımızın 20%-dən çoxunun düşmən tapdağında olduğu bir vaxtda Ə.Əmirlinin bu əsərə müraciət etməsi çox təqdirəlayiq bir hadisədir. Ölkəmizin müstəqilliyə qədəm qoyduğu vaxtla tarixi keçmişimiz arasında körpü rolunu oynayan tamaşa böyük uğurla keçdi.

Tamaşada şah Qaçar rolunu Xalq artisti və Dövlət mükafatı laureatı Fuad Poladov oynayırdı. Aktyor qəhrəmanının həyat eşqini, ürək çırpıntılarını, Qacarın daxili sarsıntılarını elə canlandırırdı ki, insan heyrətə gəlirdi. Onun ahıl yaşında Xanbabaya dediyi sözləri F.Poladov elə söyləyirdi ki, insanlarda Qaçara qarşı xoş hisslər yaranırdı: "Var-dövlət bizim deyil. Xanbaba, bu dünyada nə varsa dünyanın özünündür. Məgər zəngin dediyin Nadir Kelatdakı xəzinəni özü ilə apara bildi? Hindistanlı Məhəmməd şahdan qəsb etdiyi "Dəryayi Nur"u ağzında saxlayırdı. Nə oldu?.. Var-dövlət etibarsız nökərdir, həmişə güclü ağa axtarır. Allah bəndəsinə qalan həmişə onun ruhudur. Mənsə hakimiyyətə uyub ruhuma xəyanət elədim, əvəzində cəzam ağır oldu. Rəbbim üz çevirdi məndən". (3,100)

Fuad Poladovun yaratdığı şah Qaçar obrazı haqqında Təranə Vahid yazır: "Şah Qaçar rolunu Fuad Poladov misilsiz dərəcədə gözəl oynayır. Sanki aktyor bu rolu oynamaq üçün illərlə, səbrlə, təmkinlə gözləyib, xəlvəti məşq edib, onun faciəsini, iztirablarını, ağrılarını ruhuna köçürüb ki, bu gün səhnəyə çıxıb gerçək Qacarı hər kəsə tanıtsın". (12)

"Şah Qacar" tamaşasında rolları: Xalq artisti L.Mustafayeva (Ceyran xanım), əməkdar artistlər S.Məmmədov (Sadıq xan), M.Səfa (Kərim Xan Zənd), M.Abdullayev (Məhəmməd Əli Xan Bəylərbəyi), K.Abdullayev (Əli Xan Cocuq), E.Rüstəmov (Əli Xan Sumbataj), A.Məmmədov (Axund Hacı Babək), V.Həsənov (Şeyx Cəfər Tonkabani), aktyorlar: Ağa Məhəmməd şah Qaçarın uşaqlıq dövrünü canlandıran Oğlan (Canəli Canəliyev), Qız (Samirə Xanlarova) öz istedadlı oyunları ilə tamaşaçılara çatdırıblar.

Azərbaycan teatrının 140 illiyi münasibətilə hazırlanan tamaşada şah Qaçarın qəddar, qaniçən olmadığı, həqiqətdə ədalətli bir şah, dindar, Allah adamı sifətləri bir daha təsdiqləndi.

Yazıçı-publisist Yunus Oğuz Azərbaycan ədəbiyyatında oxuculara "Təhmasib şah", "Sultan Alp Arslan", "Atabəy Eldəniz", "Səfəvi şeyxi" tarixi romanları ilə çoxdan tanışdır. Azərbaycan Milli Dram Teatrı 24 dekabr 2014-cü ildə Y.Oğuzun "Nadir şah" tarixi romanı əsasında hazırlanmış "Nadir şah" əsərini tamaşaçılara təqdim etdi. Quruluşçu rejissor Gümrah Ömər tamaşanı iki hissəli dramatik xronika şəklində səhnələşdirdi.

Nəriman Nərimanov Nadir şahı qaçaq-quldur, qaniçən bir şah kimi göstərib. Ancaq Y.Oğuz tarixi araşdıraraq Nadir şahın müsbət keyfiyyətlərini üzə çıxarıb, oxuculara təqdim edib. Dramaturqun qələmindən çıxan Nadir güclü xarakter sahibi, səmimi, qayğıkeş insan, mahir sərkərdə, hökmdar və diplomat idi.

Gümrah Ömər ilə yanaşı Əməkdar artist Vidadi Həsənov da tamaşanın səhnə yozumunda iştirak edib. Tamaşanın bədii tərtibatını rəssam İlham Elxanoğlu, musiqi tərtibatını isə bəstəkar, Əməkdar incəsənət xadimi Sərdar Fərəcov verib. Rejissorlar tamaşanı iki hissəli dramatik xronika şəklində səhnələşdirsələr də buna rəğmən qəhrəmanın keçmişi, yaşamı, münasibətləri, tarixi proseslər fonunda məsələlərə mövqeyindəki uyarsızlıqlar öz əksini tapıb. Gənc teatrşünas Niyazi Cəfərov "Kaspi" qəzetində rejissor işini təhlil edərək yazır ki, "Tamaşanın rejissoru Gümrah Ömər bir qədər tarixi-xronoloji, bir qədər də psixosof poetikasından çıxış edərək obrazların daxili psixologizmini və ovqatını təsvir etməyə çalışır". (12)

Tamaşada çox maraqlı səhnə tərtibatı da var idi. İ.Elxanoğlunun səhnədə qurduğu konstruksiya bir neçə funksiyanı yerinə yetirirdi. Bu həm zirvəyə - taxta gedən yoldur, həm xəyalla reallıq arasında körpüdür.

Aktyor oyununa gəldikdə deməliyik ki, Xalq artisti R.Novruz və əməkdar artist M.Səfa (Nadir şah), əməkdar artistlər V.Həsənov (I Mahmud, Moğol şahı Məhəmməd Şahın vəziri Səadət xan, Əmir Teymur və Əbülfəz Feyz), İ.Hüseynov (Leyli Əbdül Əfəndi və Rusiya

elçisi Qolitsın), aktyorlar H.Rəhimov (Rzaqulu), K.Cəfərzadə (Fatimə Soltan bəyim), Ş.İbrahimov (Nəsrullah), E.Həmidov (Dauran xan) və V.Hacıyev (Məhəmmədxan Türkman, Miyanqala sərkərdəsi) obrazlarını yaratmışlar.

Xalq artisti Ramiz Novruz Nadir şahı təmkinli, soyuqqanlı göstərməyə çalışsa da, daxilən fırtınalarla didişən, hakimiyyət yükünün ağırlığını hiss edən və bunların fonunda həm də emosiyaları ilə çarpışan şah diqqət çəkir. Aktyorun ifasında biz yalandan deyil, həqiqətən taxta çıxmağa məcbur edilmiş və taxt-tacın təsiri ilə dəyişməyə məhkum bir insanı görürük. Etdiyi hərəkətləri götür-qoy etdikdən sonra qərarlar verir. “Oğlu Rzaqulunun və hətta suiqəsdçinin gözlərini çıxardarkən aktyorun gözlərindəki iztirab, çıxardığı hökmə görə sonradan faciəsinə yol açacaq ətrafına münasibəti oyunun səmimiyyətini və inandırıcılığını gözlər önünə sərdi”. (7)

Rejissor rol bölgüsü apararkən bir aktyora bir neçə rol verib. Bu isə bəzi obrazlarda dəyişənin qəhrəman-personajlar deyil, sadəcə qrim və geyimin olduğu açıq-aydın görünüb. İlham Hüseynov “Nadir şah” tamaşasında hakim atalıq, münəccim, Leyli Əbdül Əfəndi və Rusiya elçisi Qolitsın rollarını ifa edib. Aktyor üzərinə böyük iş götürsə də, sabit oyun tərzini qoruyub saxlaya bilib. İ.Hüseynovun oyununda hakim atalığı ilə Əbdül Əfəndi obrazı arasında tək fərq geyimində və saqqalındadır. Anadolu qazisi xarici görünüşcə 70-80 yaşlı qoca olsa da, oyun tərzi və səs tembri baxımından 30-35 yaşlı cavanı xatırladırdı.

Yunus Oğuz və Gümrah Ömərin “Nadir şah”ı sonucda əbədiləşmiş qəhrəmana çevrilir. Öz adını nəhənglər cərgəsinə daxil edən Nadir şah türkçülüyün (sonda qurdun ulaması), mərdliyin (Nadir şahın sonda qılıncı ilə abidələşməsi) və xalqın sərkərdəsinə çevrilən rəhbərin tarixə imzasını ata bildi.

Nəticə etibarilə deyə bilərik ki, XX əsrin əvvəlində tamaşaya qoyulan Nəriman Nərimanovun “Nadir Şah”, Əbdürrəhim bəy Haqverdiyevin “Ağa Məhəmməd şah Qacar” əsərlərində tarixi şəxsiyyətlər olan Nadir şahı və Ağa Məhəmməd şah Qacar zülmkar, qəddar, qaniçən kimi verilsə də, XXI əsrin ilk onilliyində göstərilən Əli Əmirlinin “Şah Qacar”, Yunus Oğuzun “Nadir şah” tamaşalarının qəhrəmanları Şah Qacar və Nadir şah ədalətli, dindar, Allahını tanıyan, güclü xarakter sahibi, səmimi, qayğıkeş insan, mahir sərkərdə, hökmdar və diplomat olaraq oxuculara və tamaşaçılara təqdim edildi. ❖

**Ədəbiyyat:**

1. Ə.Haqverdiyev. Seçilmiş əsərlər. İki cilddə. Birinci cild, Bakı, “Azərnəşr”, 1956, 456 səh.
2. Ə.Haqverdiyev. Seçilmiş əsərlər. İki cilddə. İkinci cild, Bakı, “Azərnəşr”, 1957, 402 səh.
3. Ə.Əmirli. 15 pyes. Bakı, “Elm”, 2006, 256 səh.
4. “İrşad” qəzeti, 10 sentyabr 1906.
5. “Kaspi” qəzeti, 10 fevral 1906-cı il.
6. “H.Ərəblinski” almanaxı. Bakı, “Azərnəşr”, 1949, 72 səh.
7. H.Nizamiqızı. “Nadir ola bilməyən şahın faciəsi”. “Mədəniyyət” qəzeti, 28 dekabr 2014.
8. İ.Kərimov. Azərbaycan peşəkar teatrının tarixi və inkişaf mərhələləri. Bakı, “Maarif”, 2002, 575 səh.
9. V.Qafarlı. Azərbaycan teatrının janr poetikası. Bakı, “Qanun”, 2012, 159 səh.
10. N.Cəfərov. “Tarixi Nadir...” “Kaspi” qəzeti, 26 dekabr 2014.
11. T.Əhmədov. Nəriman Nərimanov dramaturgiyası. Bakı, “Elm”, 1985, 98 səh.
12. T.Vahid. “Şah Qacar” səhnədə. “Mədəniyyət” qəzeti, 17 iyul 2013.

**Резюме**

Малахат Агаева

АНАЛИЗ ПРОИЗВЕДЕНИЙ «НАДИР-ШАХ» И «АГА МУХАММЕД ШАХ-ГАДЖАР», ИНСЦЕНИРОВАННЫХ В НАЧАЛЕ XX И ПЕРВОМ ДЕСЯТИЛЕТИИ XXI ВЕКА

Несмотря на то, что в произведениях Наримана Нариманова «Надир-шах» (8.02.1906), и Абдуррахим бека Хагвердиева «Ага Мухаммед Шах Каджар» (3.12.1907), поставленных в начале 20-го века такие исторические образы, как Надир-шах и Ага Мухаммед шах Гаджар изображены жестокими кровопийцами, но эти же образы в произведениях, поставленных в первом десятилетии XXI века Али Амирли («Шах Гаджар», 13.06.2013) и Юнусом Огузовым («Надир шах», 24.12.2014) представлены справедливыми, религиозными, благочестивыми, искренними, заботливыми людьми с сильным характером, опытными полководцами, властителями и дипломатами. В статье проанализировано и исследовано сценическое воплощение произведений.

**Ключевые слова:** исторический роман, пьеса, режиссер, композитор, художник, актер.

**Summary**

Malahat Aqaeva

ANALYSIS OF “NADIR SHAH” AND “AGHA MUHAMMAD SHAH GAJAR” PLAYS PERFORMED AT THE BEGINNING OF THE 20THCENTURY AND İN THE FIRST DECADE OF THE 21ST CENTURY

In the article, in the plays, “Nadir shah” by Nariman Narimanov (8.02.1906), and “Agha Muhammad Shah Qajar” (3.12.1907) by Abdurrahim bey Hagverdiyev, Nadir Shah and Aga Mahammad Shah Gajar had shown as cruel, savage and bloodthirsty human, but heroes Shah Gajar and Nadir shah in the plays “Shah Gajar” by Ali Amirli (13.06.2013) and “Nadir shah” by Yunus Oghuz (24.12.2014) that performed at the first decade of the 21st century were performed as a righteous, devout, God-fearing, strong-willed, sincere, caring person, skillful commander, ruler and diplomat to the readers and viewers. Has analyzed and investigated the scenery of the plays.

**Keywords:** historical novel, play, director, composer, artist, actor.